

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 76 (21.228)

*21 aprel 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Hüseyn Dehqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Rusiyanın “Rostex” Dövlət Korporasiyasının baş direktoru Sergey Çemezovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, “Bakı-2015” Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.

* * *

Aprelin 20-də Bakı Su İdmanı Sarayının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, “Bakı-2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılışda iştirak ediblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Aprelin 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu ilə görüşmüşdür.

Ali Məclisin Sədri muxtar respublika haqqında qonağa ətraflı məlumat vermiş, Naxçıvanda elm, təhsil, sənaye və kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışmış, ərzaq təhlükəsizliyinin təmin olunduğunu diqqətə çatdırmışdır.

Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Rumıniya arasında münasibətlərin müxtəlif istiqamətlərdə genişləndirilməsi üçün də yaxşı potensialın olduğunu vurğulamış, Daniel Kristian Çiobanunun səfərinin bu baxımdan səmərəli olacağına əminliyini bildirmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən Daniel Kristian Çiobanu Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmişdir. Rumıniya-Azərbaycan əlaqələrindən danışan qonaq Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qarşılıqlı əməkdaşlıq üçün real imkanlar açdığını bildirmiş, bu sahədə səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Görüşdə ikitərəfli əlaqələrin inkişafı ilə bağlı məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Rumıniyalı diplomat Naxçıvanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub

***Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub.***

Səfər çərçivəsində rumıniyalı diplomat ilk olaraq ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib. Səfirə məlumat verilib ki, Naxçıvan şəhərində yaradılmış Heydər Əliyev Muzeyi ümummilli liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir. Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 fevral 1999-cu il tarixli Sərəncamı ilə yaradılıb və 10 may 1999-cu ildə fəaliyyətə başlayıb. Burada nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Naxçıvan Dövlət Universiteti ilə tanışlıq zamanı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, 108 hektarlıq əraziyə malik Naxçıvan Dövlət Universiteti müasirtipli, dünya standartları səviyyəsində olan bir ali məktəbdir. Qonaq ali təhsil müəssisəsinin maddi-texniki bazası, strukturu, tədrisin keyfiyyəti, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsi ilə yaxından tanış olub. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsindəki tədris və elmi-tədqiqatyönlü laboratoriya və muzeylərlə tanışlıq, auditoriyalarda tələbələrlə görüş rumıniyalı diplomatda xoş təəssürat yaradıb.



Universitetin rektoru bildirib ki, özünəməxsus tarixi inkişaf yolu keçən universitet dünyanın 80-dən çox tanınmış ali məktəbi ilə sıx əməkdaşlıq edir. Tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavriat və doktorantları öz təhsillərini Türkiyə, Rusiya, Gürcüstan, Cənubi Koreya, Çexiya kimi ölkələrin ali məktəblərində, o cümlədən Rumıniyanın Babeş-Bolyai Universitetində davam etdirirlər. Universitetdə beynəlxalq münasibətlərin, müxtəlif xarici dillərin tədrisinə böyük əhəmiyyət verilir.

Səfir Daniel Kristian Çiobanu Rumıniyanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olduğunu, möhkəm fundament üzərində qurulan bu əməkdaşlığın bu gün də uğurla davam etdirildiyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Rumıniya arasında 2011-ci ildə imzalanmış “Strateji əməkdaşlıq” fəaliyyət planına əsasən, iki ölkə arasında siyasi-iqtisadi, sosial-mədəni əlaqələr, elm və təhsil sahəsində əməkdaşlıq inkişaf etdirilir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin müəllim və tələbələri ilə görüş zamanı səfir “Azərbaycan-NATO əlaqələri” mövzusunda məruzə edib. Məruzəçi NATO-nun yaranma tarixindən bəhs edərək xatırladıb ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1994-cü ildə NATO-nun Sülh naminə tərəfdaşlıq proqramının çərçivə sənədini, 1997-ci ildə isə Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında sərəncam imzalayıb. Azərbaycan Respublikasının sülhməramlı tağımı Türkiyə taboru daxilində Kosovoda, Əfqanıstanda keçirilən sülhməramlı əməliyyatlarda iştirak edir. Azərbaycan sülhün qorunmasını və azadlıqların müdafiəsini siyasi həmrəylik yolu ilə təmin etmək məqsədi daşıyan, müstəqil dövlətlərin alyansı olan NATO ilə əlaqələrini bu gün də uğurla davam etdirir. NATO Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında ədalətli həllinin tərəfdarıdır. Rumıniyalı səfir ölkəsinin NATO-nun Azərbaycandakı əlaqələndiricisi kimi gördüyü işlərdən də danışıb.

Sonda Rumıniya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu tələbələrin suallarını cavablandırıb.

Həmin gün Duzdağ Fizioterapiya Mərkəzində də olan rumıniyalı diplomata buradakı müalicə prosesi haqqında məlumat verilib. Bildirilib ki, bu səhiyyə müəssisəsi bir çox xəstəliklərin müalicəsində əhəmiyyətli şəfa ocağıdır. Buna görə də hər il dünyanın müxtəlif ölkələrindən bura müalicə üçün xeyli insan gəlir.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Pediatrlar Assosiasiyası və Naxçıvan Dövlət Universiteti ilə birgə “Pediatriyanın aktual problemləri” mövzusunda elmi-praktik konfrans keçirilib.*

## Naxçıvanda pediatriyanın aktual problemlərinə dair elmi-praktik konfrans keçirilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev muxtar respublikada uşaqların sağlamlığına göstərilən diqqət və qayğıdan danışıb.

Azərbaycan Pediatrlar Assosiasiyasının prezidenti, akademik Ədilə Namazova ulu öndər Heydər Əliyevin ölkəmizdə səhiyyənin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib, səhiyyə sistemində müəyyənləşdirilən vəzifələrin bu gün uğurla həyata keçirildiyini bildirib.

Sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşı, dosent Sənubər Vəliyeva “Bir yaşa qədər uşaqlarda qarışıqların seçimi: səhvlər və təhlil”, Azərbaycan Tibb Universitetinin dosenti Təranə Tağızadə “Uşaqlarda qızdırma, hipertermik sindrom”, Naxçıvan Dövlət Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev “Uşaqlarda böyrək xəstəliklərinin inkişaf anomaliyaları” mövzularında çıxışlar ediblər.

## Culfa Rayon Mərkəzi Xəstəxanasında bir gündə 30 cərrahi əməliyyat aparılıb

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin tibb işçiləri bölgələrdə cərrahi əməliyyatları uğurla davam etdirirlər. Yeni səhiyyə müəssisələrindən olan Culfa Rayon Mərkəzi Xəstəxanasında da cərrahiyyə əməliyyatları aparılır. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin cərrahları və əməliyyat blokunun tam heyəti ötən şənbə bu səhiyyə müəssisəsində olub, əvvəlcədən növbəyə alınmış xəstələri müayinə edib, tövsiyələr veriblər. Cərrahi müdaxiləyə ehtiyacı olan 30 nəfər üzərində uroloji, proktoloji qiqant, yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr 1 günlük müşahidədən sonra evlərinə buraxılıblar.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərlə tibbi avadanlıqların işləmə qaydaları haqqında söhbətlər aparıblar.

Mərkəzin əməliyyat bloku digər rayonlarda da ucqar dağ və sərhəd kəndlərini əhatə etməklə cərrahiyyə əməliyyatları davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Muzeylər həm də bilik məbədidir

*Oxucular da təsdiq edərlər ki, insan təkcə tədris ocaqlarında, şəxsi mütaliə ilə bilik qazanmır. Bunun üçün başqa vasitələr də kifayət qədərdir. Dünyanın inkişaf etmiş ölkələrində həmin vasitələrdən istifadəyə böyük üstünlük verilir. Bu vasitələr içərisində hər bir xalqın tarixini, mədəniyyətini, etnoqrafiyasını və digər sahələri özündə mühafizə və nümayiş etdirən, dünənimizdən bu günümüzə və sabahımıza körpü rolunu oynayan, tədqiqatçılar üçün araşdırma obyektlərindən biri sayılan muzeylər xüsusi əhəmiyyətə malikdir.*



Bu baxımdan muxtar respublikamızda geniş imkanlar var. 30-a yaxın muzeyin fəaliyyət göstərdiyi regionumuzda belə mədəniyyət müəssisələri öz zəngin ekspozisiyaları və çoxsaylı eksponatları ilə təkcə naxçıvanlıların deyil, buraya gələn qonaq və turistlərin də diqqətini cəlb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada “Muzey günləri”nin təşkil olunması bu baxımdan böyük əhəmiyyət daşıyır. Həftənin şənbə günləri nazirlik, komitə, agentlik, idarə və təşkilatların əməkdaşları müxtəlif muzeyləri ziyarət edir, həmin mədəniyyət müəssisələrinin fəaliyyəti və burada özünə yer alımış eksponatlarla tanış olurlar.

Ötən şənbə günü Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin, Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları Heydər Əliyev Muzeyində, Dövlət Miqrasiya və Baytarlıq xidmətlərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Satınalmalar üzrə Dövlət Agentliyinin və “Naxçıvanqaz” İstehsalat Birliyinin kollektivləri Dövlət Xalça Muzeyində, Dini Qurumlarla İş üzrə İdarənin, Dövlət Energetika və Baş Sığorta agentliklərinin əməkdaşları “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublika İdarəsinin, “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublika Baş İdarəsinin, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində, Dövlət Statistika Komitəsinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitələrinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, “Şərq qapısı” qəzetinin əməkdaşları Ədəbiyyat Muzeyində olublar.

Muzey bələdçiləri fəaliyyət göstərdikləri mədəniyyət müəssisələrindəki eksponatlar barədə kollektivlərə ətraflı məlumat veriblər.

Həmin gün muzeylərimizi ziyarət edən ayrı-ayrı kollektivlərin bir neçə əməkdaşı ilə həmsöhbət oldum, onlardan muzeyləri ziyarətin əhəmiyyəti, muzeylərdən aldıqları təəssüratlar barədə soruşdum. Aldığım cavablar da maraqlı oldu.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı Vüsal Sevdimalıyev bildirdi ki, son illər göstərilən hərtərəfli dövlət qayğısı hesabına muzeylərimizin də fəaliyyətində böyük dönüş var. Belə müəssisələri ziyarət etmək həm asudə vaxtın səmərəli təşkilinə töhfəsini verir, həm də insanlar muzeylər vasitəsilə öz biliklərini artırırlar. Bu, sirr deyil ki, naxçıvanlılar qədim diyarımızın zəngin tarixi, şərəfli keçmişi, mədəniyyəti, ədəbiyyatı, folkloru, etnoqrafiyası ilə qürur hissi keçirir və bu sahələri dərindən öyrənməkdə



maraqlıdırlar. Bu səbəbdən də həmişə muzeylərin fəaliyyətindən istifadəyə üstünlük veriblər. Ona görə ki, həyat davam etdikcə insan daha çox öyrənməyə səy göstərir. Muzeylərimizə yeni tapılmış eksponatlar gətirilir, müasir dövrümüzü əks etdirən sənədlər daxil olur; onlarla tanış olmaq və öyrənmək baxımından Ali Məclis Sədrinin müvafiq sərəncamı böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Nemət Şükürov dedi ki, paytaxt şəhərimizdəki muzeylərdə dəfələrlə olub. Ancaq həmin mədəniyyət müəssisələrini kollektiv şəkildə ziyarət etmək insanlarda həm də kollektivçilik ruhunun gücləndirilməsi, əməkdaşlarla müxtəlif sahələr, həmçinin dünənimiz və bu günümüz barədə polemikalar aparmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Nemət Şükürov onu da vurğuladı ki, Dövlət Bayrağı Muzeyində muzey bələdçisi onlara muxtar respublikanın çoxlarına məlum olmayan bayraqları barədə ətraflı məlumat verib. Ona görə də bu gün orta, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələrinin belə ünvanlara sistemli şəkildə gedişlərinin təşkili çox faydalı ola bilər.

Biz də, öz növbəmizdə, hər iki müsahibimizin fikirləri ilə razılaşır, muxtar respublika sakinlərini muzeylərimizi ziyarət etməyə çağırırıq.

✍ **Muxtar MƏMMƏDOV**

**Cəmiyyətin sosial-iqtisadi inkişaf göstəriciləri arasında insanların ümumi rifah halını müəyyən edən sosial siyasət tədbirlərinin nəticələri mühüm yer tutur. Sosial siyasət çox həssas bir mexanizm kimi bazar iqtisadiyyatı şəraitində dövlətin ali maraqlarının yerinə yetirilməsi üçün tələb olunan sosial ədalətin bərqərar edilməsi və insanlara firavan həyat sürmək üçün zəruri sosial zəmanətlər verilməsi vəzifəsi daşıyır.**

# Səmərəli sosial siyasət iqtisadi inkişafın nəticəsidir

Müasir dünyanın mənzərəsinə baxdıqda çox sürətlə dəyişilən texnoloji yeniliklər fonunda sosial-mədəni tələbatların da artdığını görməkdəyik. Qloballaşmanın təkan verdiyi sürətli informasiya axını, insan hüquq və azadlıqlarının yaratdığı geniş imkanlar çox deyil, cəmisi iyirmi il əvvəl mövcud olmuş həyat tərzinə yeni standartlar gətirmiş, daha uzun və keyfiyyətli ömür sürə bilmək əsas məqsədə çevrilmişdir. Planetdə münbit torpaq sahələrinin və təbii ehtiyatların sürətlə tükəndiyi, insan sayının da artdığı bir dövrdə qlobal rəqabətin kəskinliyi də artmaqdadır. Nəticədə, dünyanın bir tərəfində sərvəti milyonlarla, milyardlarla ölçülən milyonlarla zəngin insan yaşadığı halda, digər bir yanda uşaqların oyuncaq və ayaqqabı tanımadığı, yoxsulluq həddindən də aşağı səviyyədə yaşayan yüz milyonlarla ailələr vardır. Bu ölkələrdə bazar iqtisadiyyatının sərt qanunları ilə üzləşən belə yoxsul insanların taleyin hökmü ilə üz-üzə qalması isə planetimizdə müasir dövrümüzün kəskin sosial problemlərindən olan miqrasiya və terrorizmin yayılmasına səbəb olan ən başlıca səbəblərdəndir. Belə bir şəraitdə kimliyindən asılı olmayaraq, hər bir sosial fərdin normal yaşayış səviyyəsinə yönəlmiş sosial siyasət tədbirləri dövlətin və onun müvafiq sosial institutlarının gündəlik qayğısı kimi əhəmiyyət qazanır. Çünki sosial siyasət yalnız dövlətdən və dövlətə aid qurumlardan gözlənilən ali fəaliyyət sahəsidir.

Ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əhalinin bütün təbəqələrinin rifahının təmin olunmasına yönəlmiş dövlət siyasəti öz məzmununa görə cəmiyyətdə uzunmüddətli sabitliyin bərqərar olunması, insanların kollektiv rifahlarının ödənilməsi üçün sosial infrastruktur sahələrinin inkişafı, insan inkişafı indeksini müəyyən edən təhsil, səhiyyə və rekreasiya sahələrinin inkişafı və ictimai asayişin çox güclü şəkildə mühafizə olunması kimi dərin proqramlaşdırılmış istiqamətlərlə müəyyən olunmuşdur. Bu həyati vektorlar ölkəmizin müstəqilliyinin ilk illərindən başlayaraq, xüsusən də muxtar respublikamızın blokada vəziyyətinə düşdüyü həmin dövrlərdə gündəlikdə olsa da, yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı ilə bu, qəti olaraq müəyyənləşdi: *ölkəmizin iqtisadi qüdrəti onun ərazi bütövlüyünün bərpasına və vətəndaşlarının rifahına yönəlməlidir!*

Şübhəsiz, müasir dövrdə dövlətimizin sosial siyasət yönümlü tədbirləri çoxşaxəlidir və onlar zamanın tələbinə görə öz forma və auditoriyasını dəyişməkdədir. Yəni ölkəmizdə, eləcə də muxtar respublikamızda 1995-2003-cü illər arasında dövlətin sosial yönümlü layihələri ilə bundan 10 il sonrakı dövr üçün həyata keçirdiyi tədbirlər arasında mühüm keyfiyyət fərqləri vardır. Əgər 1995-ci ilə qədər ölkəmizdə, eləcə də muxtar respublikamızda müharibədən və blokada vəziyyətindən əziyyət çəkən insanların ərzaq, geyim və digər vacib gündəlik tələbatlarının ödənilməsi hökuməti düşündürürdüsə, artıq indi ölkəmizin hər bir regionunda uşaq və gənclərin kütləvi idmana cəlb olunması, yaxud hər bir bölgədə müasir müalicə və diaqnostika mərkəzlərinin yaradılması məsələsi gündəlikdədir. Geriyə dönüb baxdıqda 20 ilin bəzi məsələlərin həlli üçün çox da geniş vaxt olmasa da, bu və buna bənzər çox sayda sosial məsələlərin həllinin yalnız iqtisadi cəhətdən güclü dövlətin həyata keçirdiyi layihələr hesabına mümkün ola biləcəyini görürük. Bəziləri “sosial siyasət” deyəndə onu sırf pensiya və ya bir sıra passiv sosial müdafiə tədbirləri kimi başa düşür və ya bunu belə qəbul etmək istəyirlər. Ancaq insanların real tələbatlarına və onların ödənilməsi üçün ehtiyatların formalaşma mənbələrinə baxdıqda görürük ki, hazırda cəmiyyətimizdə çörək də daxil olmaqla, bir sıra mühüm ərzaq məhsullarının, təhlükəsiz suyun, fasiləsiz enerjinin, sürətli və etibarlı informasiyanın təmini kimi məsələlər əhalinin bütün təbəqələri üçün eyni həssaslıqla həllini tapmışdır. Bunlardan əlavə, kimliyindən asılı olmayaraq, hər kəsin həyat və sağlamlığı üçün eyni dərəcədə həyati-vacib olan ekoloji tarazlığın qorunub saxlanılması da dövlətin sosial qayğıları arasında mühüm yer tutur. Son illər muxtar respublikamızda yaşıllıqların artırılması, su hövzələrinin sənaye və məişət tullantılarından təmizlənməsi və mərkəzləşdirilmiş kanalizasiya sisteminin və sutəmizləyici qurğular kompleksinin yaradılması bir vaxtlar hansısa səbəblərdən yararsız hala düşmüş ərazidə insanların sağlamlığı üçün yaranmış təhlükənin aradan qaldırılması, gələcək nəsillərə saf ekoloji şəraitin miras edilməsi kimi ümumbəşəri məqsəd daşıyır. Bu gün dünyanın super dövlətlərində sənayeləşmə xatirinə yaradılmış zərərli istehsal sahələrinin tullantıları qlobal bir problemə çevrilərək planetdə ən vacib və ən bəsit tələbat olan təmiz hava və içməli su təchizini də riskə məruz qoymuşdur. Belə olan bir şəraitdə Azərbaycan kimi inkişaf etməkdə olan ölkədə yaşıllıqların qorunması və onların bərpa olunması üçün görülən işlər təkcə ölkəmizin vətəndaşlarının deyil, bölgənin və bütün dünyanın insanlarının sağlamlığına verilən bir töhfədir.

Söz sağlamlıqdan düşmüşkən, “sosial siyasət” mövzusunda müasir insanların rekreasiya tələbatının ödənilməsi də öz aktuallığını qorumaqdadır. Rekreasiya təsərrüfatı elə bir sosial mexanizmdir ki, bu, bir növ, dövlətin sosial siyasətinə dəstək olan və əhalinin çox geniş təbəqələrini, hətta turizm-rekreasiya kompleksi işçilərinin də maraqlarını ödəyən bir mükafatlandırma sistemidir. Müasir dövrdə insanların asudə vaxtının düzgün təşkili, uşaq və gənclərin vətənpərvərlik və ekoloji tərbiyəsi baxımından rekreasiya və sosial turizm çox effektli sosial mexanizm kimi özünü göstərir. Praktika göstərir ki, insanlara, sadəcə, məzuniyyətlərin verilməsi və yaxud bu məzuniyyət müddətinin son gününədək istifadə imkanının yaradılması hələ tamamilə onların rekreasiya olunub, yeni yaradıcı qüvvə ilə işinə, təhsilinə qayıtması demək deyildir. Bu sahədə bazarın şərtlərinə uyğunlaşan və özünü təmin edə bilən şəxslərdən fərqli olaraq, əhalinin böyük bir qisminin yükü də dövlətin üzərinə düşür. Dünya təcrübəsi sübut edir ki, insanların ehtiyacı olduğu belə tələbatları ödəmək sosial səmərə baxımından yardım kimi bəzi passiv sosial tədbirlərdən də yaxşı effekt verir. Muxtar respublikamızda bu sahədə görülən işlər, uşaq və gənclərin aktiv yay tətili kamplarına cəlb olunması, müalicəyə ehtiyacı olanların ölkəmizdəki, Türkiyədəki və Avropa ölkələrindəki müalicə turlarına göndərilməsi sosial siyasət çərçivəsində bölgədə həyata keçirilən uğurlu pilot layihələrdəndir. Dost Gürcüstan Respublikasından müalicəyə ehtiyacı olan acarıstanlı uşaqların Naxçıvanın Duzdağında ölkəmizin hesabına pulsuz müalicəsinin təşkili isə bu gün dünyada sosial turlar üzrə lider olan İsveçrə və Fransa kimi ölkələr üçün də nümunədir. Çünki bu ölkələrdə sosial turlar yalnız öz ölkəsinin vətəndaşları üçün tətbiq olunur.

Cəmiyyətin sosial tələbatları kimi “sosial siyasət” mövzusunda da danışıla biləcək arqumentlər sonsuzdur. Yetər ki, cəmiyyətin müəyyən inkişaf mərhələsində mövcud həyat standartlarının təmin oluna bilinməsi üçün əməkqabiliyyətli bütün cəmiyyət üzvlərinin tutduğu vəzifədə ölkə iqtisadiyyatının inkişafına töhfəsi olsun. Dövlətimiz var olduqca, yüksələn iqtisadi inkişafımız da sosial rifahımıza çevriləcəkdir.

✍ **Əli CABBAROV**

# Muxtar respublika dəmiryolçuları qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirirlər

Muxtar respublikanın dəmir yolu nəqliyyatında xidmətin nümunəvi təşkili diqqətdə saxlanılır, yolların və qatarların sazlığı yoxlanılır, yollarda təhlükəsiz və fasiləsiz hərəkət təmin olunur. Mart ayında Culfa lokomotiv deposunda elektrovozlar 3, teplovozlar isə 1 dəfə texniki baxışdan keçirilmiş, cari təmir işləri aparılmışdır. Bu dövrdə Culfa vaqon deposunda isə 4 vaqon təmir edilmişdir. Xidməti ərazilərdəki bütün keçidlər, yol yatağı və yoldəyişdiricilər yoxlanılmış, çatışmazlıqlar aradan qaldırılmışdır. Ay ərzində defektoskop briqadası tərəfindən 157 kilometr baş yol, 27 kilometr stansiya yolları, 55 dəst yoldəyişdirici qurğu və 7500 ədəd qaynaq calağı yoxlanılmışdır. Rabitə və işarəvermə sahəsi üzrə stansiyalarda 26 müxtəliftipli rele dəyişdirilmiş, dispetçerlə maşinistlər arasında olan radio-rabitənin etibarlılığını artırmaq məqsədilə lokomotivlərdə 4, stansiyalarda isə 3 ədəd müxtəliftipli blok dəyişdirilmişdir.

Dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, yeni xidməti obyektlərin tikintisi və yenidənqurma işləri mart ayında da davam etdirilmişdir. Belə ki, ötən ay Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad yol sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir.

Ümumiyyətlə, mart ayında görülmüş işlər nəticəsində Ordubad-Vəlidağ istiqamətində hərəkətdə olan yük və sərnişin qatarlarının fasiləsiz işi təmin olunmuşdur. Bu dövrdə 11 min 428 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmiş, yük qatarları vasitəsilə 3 min 437 ton müxtəlif təyinatlı yük daşınmışdır. Yerlərdə yaradılan şərait və həyata keçirilən ardıcıl tədbirlər növbəti aylarda da sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcəkdir.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti***

*Rusiya imperatoru I Pyotrun vəsiyyətlərinə uyğun olaraq, XVIII yüzilliyin sonlarından başlayaraq, xüsusilə 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrinin şərtlərinə əsasən, Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər öz yerlərini möhkəmləndirdikdən sonra ölkəmizə qarşı ərazi iddialarına başlamışlar. Bu iddiaları, xüsusilə xəyali "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün ermənilər bir sıra soyqırımı aktları həyata keçirmişlər.*

# Ermənilərin Naxçıvanda törətdikləri soyqırımlar

Tarixən heç bir dövlətçilik ənənələrinə malik olmayan ermənilər Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin 1918-ci il mayın 29-da daşnaklara güzəştə getdiyi qədim Azərbaycan şəhəri İrəvanı paytaxt etməklə Qərbi Azərbaycan ərazisində 1920-ci ilin noyabrında özlərinin dövlətlərini yaratmışlar. Bununla kifayətlənməyən ermənilər bütün XX əsrboyu Azərbaycana qarşı ərazi iddialarını davam etdirmiş, xalqımıza qarşı soyqırımlar və deportasiyalar həyata keçirmiş, günahsız insanların qanını axıtmış, dəhşətli qırğınlar və qətliamlar törətmişlər.

XX yüzillikdə xalqımıza qarşı ermənilər tərəfindən törədilən soyqırımları sırasında 1918-1920-ci illərdə həyata keçirilmiş qırğınlar öz ağırlığına, miqyasına və nəticələrinə görə xüsusilə seçilir. Bu soyqırımlar bəşər tarixində ən qanlı və misligörünməmiş faciələrdən biridir. Həmin vaxt Bakını azərbaycanlılarsız şəhərə çevirmək məqsədini qarşıya qoymuş ermənilər şəhərdə kütləvi qırğınlar törətmiş və on minlərlə azərbaycanlıya divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. 3 gün (30 mart-1 aprel) ərzində Bakı Kommunası, xüsusilə onun rəhbəri Stepan Şaumyan tərəfindən müdafiə edilən və istiqamət verilən ermənilər Bakıda 15 mindən artıq günahsız insanın həyatına son qoymuşlar. Bu qanlı hadisələr təkcə Bakı şəhəri ilə məhdudlaşmamış, Azərbaycanın digər bölgələrində də böyük faciələr törədilmişdir. Məsələn, təkcə Şamaxı şəhəri və qəzasının 72 kəndi Bakı Sovetinin bolşevik-daşnak qoşunları tərəfindən dağıdılmış, 8 min nəfərə qədər azərbaycanlı öldürülmüşdür.

Həmin vaxt Qarabağda 157, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Şamaxıda 58, Qubada 122, Qarsda 92, İqdır və Üçkilsədə 60, Göyçədə 22, Dərələyəzdə 74, Vedibasarda 118, Yeni Bəyaziddə 84 kənd viran edilmiş, əhaliyə qanlı divan tutulmuşdur. Bir sıra tarixi sənədlər sübut edir ki, həmin vaxt Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir. 1914-cü ildən 1918-ci ilə qədər Cənubi Azərbaycanda soyqırımına məruz qalan 150 min, Şərqi Anadoluda qətlə yetirilən 200 min azərbaycanlı da bu siyahıya əlavə edilsə, onda ermənilərin qısa müddətdə (1914-1920-ci illər) törətdikləri vəhşiliklərin mənzərəsi tam aydın olar.

1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı siyasəti qədim və əzəli Azərbaycan torpağı olan Naxçıvandan da yan keçməmiş, azğınlaşmış ermənilər burada da qanlı faciələr törətmişlər. Arxiv materialları, tədqiqat əsərləri, müasirlərin xatirələri təkzibolunmaz faktlarla təsdiq edir ki, 1918-ci il Naxçıvan əhalisi üçün böyük müsibətlərlə başlanmışdır. Rus ordusundan aldıqları döyüş sursatı ilə silahlanmış erməni quldur dəstələri artıq mart ayında Naxçıvan bölgəsinin müxtəlif yerlərində dəhşətli hadisələr törətmişlər. Onlar Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kəndlərinə basqınlar edir, əhaliyə divan tutur, qadınları, uşaqları, qocaları belə öldürür, heç kimə rəhm etmirdilər.

Belə bir vaxtda Naxçıvan ərazisi Azərbaycan xalqının qəddar düşməni, Türkiyədə hərbi andına xəyanət etdiyinə görə cəzalandırılan Andranik Ozanyanın hücumlarına məruz qalmışdır. 1918-ci il iyul ayının 24-də Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andranik öz qoşunları ilə Culfa bölgəsinin Yaycı kəndi yaxınlığında Arazı keçərək Naxçıvan ərazisinə daxil olmuşdur. Həmin vaxt Yaycıda 2500 nəfər öldürülmüşdür. Beləliklə, ağır vəziyyətdə olan Naxçıvan əhalisinin vəziyyəti daha da pisləşmişdir.

Naxçıvan şəhərini tutmağı qarşısına məqsəd qoyan Andranik qərbə doğru irəliləyərək Aza, Düylün, Dizə kəndlərinin əhalisini qılıncdan keçirmişdir. Qısa müddət ərzində o, Ordubad dairəsinin əksər hissəsini, Culfa şəhərini və bir sıra kəndləri işğal etmişdir. Dövri mətbuat materialları təsdiq edir ki, həmin vaxt Andranik Gilançay və Əlincəçay vadilərində çoxlu kəndi dağıdıb viran qoymuş, əhalinin əksəriyyətini vəhşicəsinə qətlə yetirmişdir. Baş verən bu hadisələrlə əlaqədar Ordubad şəhərinin bir qrup sakini Bakıya vurduqları teleqramda bildirirdilər ki, Andranikin quldur dəstəsi burada amansız qırğın aparır və talançılıqla məşğul olur.

Andranik Ozanyan Culfanı işğal etdikdən sonra Bakıya, Stepan Şaumyana göndərdiyi xüsusi teleqramda yazırdı: "Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm". Şaumyan isə cavab teleqramında onu xalq qəhrəmanı adlandırır və bildirirdi ki, mən şəxsən sizi, həqiqi milli qəhrəmanı təbrik edirəm. Əgər Kaçaznuni və başqaları sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinliklə yaşamazdı. Əgər türk bəyliyinə və xanlığına, gürcü hakimiyyətinə, erməni burjuaziyasına qalib gəlsək, o zaman bütün Cənubi Qafqazın birliyinə nail olarıq.

Buradan aydın olur ki, Andranik S.Şaumyanla sıx əlaqədə olmuş, onun tapşırıqlarını yerinə yetirmişdir. Teleqramdan görünür ki, onlar bütün Cənubi Qafqazı erməniləşdirmək fikrində olmuşlar.

Nehrəm kəndinə və Naxçıvan şəhərinə uğursuz hücumdan quduzlaşan erməni quldurları Naxçıvançayın sol sahilində yerləşən kəndlərdə, xüsusilə "Sirab dərəsi" adlanan yerdə qanlı qətllər törətmiş, ətraf kəndlərdən qaçıb buraya toplanmış əhalini qılıncdan keçirmişlər. Həmin vaxt yaxın ərazilərdən Sirab kəndinə pənah gətirmiş və kənddəki üç məsciddə gizlənmiş 1000-dən artıq günahsız insanı od vurub məsciddə yandırmışlar. Ermənilərin hücumları zamanı Naxçıvanın 80-dən artıq yaşayış məskəni dağıdılmış, on minlərlə insanın həyatına son qoyulmuşdur. Həmin vaxt Naxçıvan bölgəsində 100 mindən bir az artıq adam yaşayırdı. Andranikin vəhşilikləri zamanı və sonrakı iki il ərzində bu adamların, təxminən, 70 faizi (73727 nəfər) qəddarcasına qətlə yetirilmişdir. Bu günahsız insanların böyük bir hissəsi azyaşlı uşaqlar, qadınlar və qocalar olmuşdu.

Beləliklə, 1918-ci ilin ortalarında Naxçıvan bölgəsində yerli türk-müsəlman əhalisinin erməni quldur dəstələri tərəfindən tamamilə məhv edilməsi təhlükəsi yaranmışdı. Ona görə də Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi 1918-ci il may ayının sonunda Türkiyəyə xüsusi nümayəndə heyəti göndərmişdir. Kərim xan İrəvanlının rəhbərlik etdiyi bu heyət Mehmet Vehib paşa ilə görüşmüş və erməni quldur dəstələrini dağıtmaq üçün Naxçıvana qoşun göndərməyi xahiş etmişdir. Nümayəndə heyətinin xahişi müsbət qarşılanmış və 1918-ci il iyun ayının əvvəllərində 9-cu və 11-ci türk diviziyalarına Naxçıvana doğru hərəkət etmək haqqında əmr verilmişdir. Həm yerli əhalinin müqaviməti, həm də türk qoşunlarının bura gəlməsi nəticəsində Andranik qoşunları ilə birlikdə Naxçıvanı tərk etməyə məcbur olmuşdur. Naxçıvan bölgəsi həmin vaxt erməni təcavüzündən xilas olsa da, ermənilərin bu bölgəyə qarşı ərazi iddiaları bütün XX yüzillikboyu davam etmişdir.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan keçmişdə olduğu kimi, bu gün də ermənilərin diqqət mərkəzindədir. Onlar bu məqsədə çatmaq, öz mənfur niyyətlərini həyata keçirmək – Naxçıvana yiyələnmək üçün bütün vasitələrə, ən iyrənc üsullara əl atır, hətta silahlı qruplaşmalar yaradırlar. Məsələn, bu məqsədlə 1999-cu ildə İrəvanda "Naxçıvan qardaşları" cəmiyyəti təsis edilmiş, "Könüllü Naxçıvan batalyonları" yaradılmış, "Azad Naxçıvan" adlı qəzetin nəşrinə başlanmış, hətta "Kim Naxçıvanı istəyir?" sualı ilə rəy sorğusu keçirilmişdir.

Ona görə də Azərbaycan xalqı, xüsusilə düşünülərək qəsdən Azərbaycan torpaqlarından ayrı salınmış Naxçıvanın əhalisi erməni təcavüzkarlarına cavab vermək üçün hər an hazır olmalıdır. Çünki xəyanətkar ermənilər öz məqsədlərinə çatmaq, arxadan zərbə vurmaq üçün daim əlverişli məqam gözləyirlər. Ancaq Naxçıvan əhalisi tamamilə arxayındır və əmindir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi, ***"Azərbaycan və ona bağlı Naxçıvanın ərazisi sayıqlıqla müdafiə olunur və çox möhkəm qorunur. Erməni daşnakları öz niyyətlərinə heç vaxt çata bilməyəcəklər".***

Ermənilər hər il aprelin 24-nü qondarma soyqırımı günü kimi qeyd edirlər. Tarixə nəzər salarkən aydın olur ki, həmin gün heç bir soyqırımı törədilməmişdir. Birinci Dünya müharibəsinin gedişi zamanı Türkiyə torpaqlarında erməni dövləti yaratmaq istəyən ermənilər dəfələrlə türklərə xəyanət etdiklərinə, onlara arxadan zərbə vurduqlarına görə Osmanlı sultanı fərman verərək 24 aprel 1915-ci ildə imperiya daxilində antitürk fəaliyyətlə məşğul olan erməni partiya və komitələrini ləğv etmişdir. Fərmana uyğun olaraq, erməni partiya və komitələrinin 235 nəfər fəal üzvü həbs edilərək hərbi məhkəməyə verilmişdir. Həmin vaxt 250 min erməni əsgəri rus qoşunları ilə birləşərək Türkiyəyə qarşı vuruşduğuna görə Türkiyə hökuməti erməniləri başqa yerə köçürməyə məcbur olmuşdur. Ermənilər bu hadisəni soyqırımı kimi qələmə verir və 24 aprel 1915-ci il tarixini dünya ictimaiyyətinə soyqırımı günü kimi sırıyırlar.

İngilislərin 1919-cu ildə həbs etdiyi görkəmli türk alimi Ziya Göyalp məhkəmədə "Siz erməni qırğınına görə həbs edilmisiniz. Bu barədə nə deyə bilərsiniz?" sualına "Mənim məmləkətimə böhtan atmayın. Bizdə erməni qırğını olmayıb, erməni-türk vuruşması olub. Ermənilər bizi arxadan vurdular, biz də qayıdıb cavablarını verdik" cavabını vermişdi. Görkəmli alimin dediyi kimi, həqiqətən də, dünyanın bu mənfur milləti Türkiyədə olduğu kimi, bütün zamanlarda onlara torpaq, yaşamaq üçün çörək və sığınacaq vermiş insanlara xəyanət etmiş, məqam düşən kimi xaincəsinə onlara arxadan zərbə vurmuşdur.

Sovet hakimiyyəti illərində Ermənistanda nəşr olunan kitabları, məqalələri və dövri mətbuat orqanlarında "qondarma erməni soyqırımı" ilə bağlı dərc olunan materialları xronoloji ardıcıllıqla izlədikdə aydın olur ki, əvvəllər ermənilər 1915-ci ildə yarım milyon adamın öldürüldüyünü cidd-cəhdlə sübut etməyə çalışırdılar. Zaman keçdikcə qoruq-qaytaq bilməyən ermənilər bu rəqəmi bir milyon yarıma çatdırdılar. Bəzən bu rəqəmi 3 milyona qədər qaldırırlar.

Həqiqətdə isə 1915-ci ildə heç bütün Yer kürəsində 3 milyon erməni yox idi. Əgər erməni alimlərinin yazdıqları həqiqət olsaydı, Əmir Teymurun XIV yüzillikdə həyata keçirmədiyi iş ("Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da lənətləyəcək" – Əmir Teymur) 1915-ci ildə baş tutar, bəşəriyyət erməni virusundan xilas olar, XX yüzillikboyu Azərbaycan türklərinə qarşı soyqırımı və deportasiyalar baş verməzdi.

Keçən əsrdə ermənilər tərəfindən aparılan soyqırımı və deportasiya siyasəti nəticəsində Ermənistan türksüz bir əraziyə çevrilmiş, azərbaycanlılar ata-baba torpaqlarından qovularaq didərgin salınmışlar. Yüzilliyin sonlarında iri dövlətlər tərəfindən himayə edilən ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, Xocalı faciəsini törətmiş, bir milyondan çox adam doğma yurd-yuvasını tərk edərək çadır şəhərciklərində yaşamağa məcbur olmuşdur.

Hazırkı dövrdə itirilmiş torpaqların sülh yolu ilə geri qaytarılması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı işlər aparılır. Biz inanırıq ki, Prezident cənab İlham Əliyevin dediyi kimi, haqq-ədalətin yerini tapacağı, dünya ictimaiyyətinin və erməni xalqının Ermənistanın bugünkü işğalçı və təcavüzkar siyasətinə "yox" deyəcəyi, necə illərdir ki, bütün Qafqazda yaşayan hər bir insana öz mənfi təsirini göstərmiş münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunacağı gün uzaqda deyildir.

***Fəxrəddin SƏFƏRLİ***
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü**

*"Naxçıvan tarixi"ndən*

# Naxçıvan qədim dövrdə

***Yazılı mənbələr.*** Naxçıvanın qədim tarixi ilə bağlı olan yazılı mənbələr olduqca azdır. Arxeoloji mənbələrin araşdırılması Naxçıvanın qədim tarixinin Urmiya regionu ilə sıx bağlı olduğunu göstərir. Lakin Şumer, Assur və Akkad mənbələri, başlıca olaraq, Urmiya ətrafı bölgələr haqqında məlumat vermişlər. Urartu mənbələri də Azərbaycanın cənubu, xüsusilə Manna haqqında məlumat vermişdir. Naxçıvanda indiyədək üç qədim kitabə aşkar olunmuşdur. Bu kitabələrin biri Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığındadır. Həmin kitabə Urartu hökmdarı Menuaya aid edilmişdir. Kitabənin mətni urartuların bu əraziyə basqınlar etdiyini göstərir. Lakin onlar bu ərazini işğal edərək möhkəmlənə bilməmişlər. Çünki indiyədək aparılan araşdırmalar zamanı Naxçıvanda Urartu abidələri qeydə alınmamışdır. İkinci kitabə Batabat yaylağında "Fərhad evi" adlı abidənin üzərində aşkar olunub. Tədqiqat zamanı müəyyən olunub ki, bu abidə heç də əvvəllər qeyd edildiyi kimi karvansara deyil, Dəmir dövrünün qəbir abidəsidir. Abidənin üzərindəki kitabə isə, şübhəsiz ki, dəfn edilənin kimliyi ilə bağlı olmuşdur. Lakin kitabə aşınaraq oxunmaz hala düşdüyündən onun hansı hökmdara aid olduğunu müəyyən etmək mümkün olmamışdır. Üçüncü kitabə AMEA Naxçıvan Bölməsinin binası təmir edilərkən binanın təməlində aşkar edilmişdir. Üzərində kitabə olan və tikinti materialı kimi binanın tikintisində istifadə edilmiş daş kitabə assuriyaşünas mütəxəssislər tərəfindən tədqiq olunmuşdur. Onların fikrinə görə, bu kitabə əsl yazı olmamışdır. Ehtimal ki, yerli tayfalar Urartu yazısını öz dillərinə uyğunlaşdırmaq üçün müəyyən cəhdlər etmişlər. Bunu Oğlanqaladan aşkar edilən tapıntılar da sübut edir. Oğlanqalada aparılan qazıntılar zamanı üzərində mixi yazı olan bir neçə keramika parçası aşkar olunmuşdur. Mütəxəssislərin müəyyən etdiyinə görə, bu yazıların bəzisi gil qabların tutumunu bildirmişdir. Digərləri isə Urartu mixi yazısının yerli istifadəsi ilə bağlı olmuşdur. Araşdırmalar Naxçıvanda yaşayan qədim tayfaların Urartu yazısından istifadə edərək özlərinə məxsus yazı və hesab sistemi yaratdığını deməyə əsas verir.

***Etnoqrafik mənbələr.*** Naxçıvanın qədim tarixi xalq içərisində yaşayan əfsanə və inanclarımızda əks olunmuşdur. Bu baxımdan Nuh tufanı ilə bağlı əfsanə xüsusilə diqqətəlayiqdir. Bu əfsanədə Mesopotamiyada yaşayan qədim əhalinin Azərbaycana, o cümlədən Naxçıvana miqrasiyası ilə bağlı faktlar maddiləşmişdir. Arxeoloji araşdırmalar bu əfsanənin müəyyən aspektlərinin doğru olduğunu təsdiq edir. Hazırda Azərbaycan arxeoloqları tərəfindən qədim Mesopotamiya sakinlərinin Azərbaycana miqrasiyası ilə bağlı müxtəlif konsepsiyalar irəli sürülmüşdür. Azərbaycan xalqının qədim tarixi haqqında dəyərli mənbə olan maddi-mədəniyyət nümunələrinin folklor nümunələri və etnoqrafik materiallarla müqayisəli şəkildə öyrənilməsi Vətənimizin qədim sakinlərinin ideoloji təsəvvürlərini, o cümlədən mifologiyasını öyrənməyə imkan vermişdir. Maddi-mədəniyyət nümunələrində dünyanın və insanın yaranışı, dünyanın quruluşu ilə bağlı təsəvvürlər əks olunmuşdur. Həyatın faniliyi insanlarda dirilik suyu, həyatın başqa dünyada davam etməsi, şər qüvvələrin insanların həyatındakı sabitliyi pozması haqqında təsəvvürlərin yaranmasına səbəb olmuşdur. Dünyanın bir çox xalqlarında olduğu kimi, Azərbaycan türklərinin də dünya haqqında təsəvvürləri müxtəlif olmuşdur. Bu təsəvvürlər mifoloji obraz və personajların fəaliyyəti ilə nə qədər mürəkkəbləşdirilsə də, insanları tarixboyu düşündürən bir fəlsəfəni – dünyanın yaranışı, həyat və ölüm anlayışlarını əks etdirmişdir. İnsanların dünyabaxışı bəzən animizm, ovsun və totemizmin sintezi şəklində qarşıya çıxsa da, bitkin bir təfəkkür tərzini əks etdirir. Bu təsəvvürlər etnoqrafik materiallarda və Azərbaycan folklorunda aydın şəkildə əks olunmuş, indiyədək qorunub saxlanmışdır.

***Naxçıvanın arxeoloji tədqiqi.*** Naxçıvan Muxtar Respublikasının qədim tarixi, başlıca olaraq, arxeoloji mənbələr əsasında öyrənilmişdir. Naxçıvan abidələrinin arxeoloji tədqiqinə XIX əsrin 70-ci illərindən başlanmışdır. Həmin illərdə dağ-mədən mühəndisi fon Koşkul qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları Peterburq Antropoloji Muzeyinə vermişdir. Həmin illərdə Beyer tərəfindən aşkar olunan əmək alətlərinin bir qismi Peterburq və Tiflis muzeylərinə, bir qismi isə Naxçıvan şəhər məktəblərindən birinə verilmişdir. Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin əmək alətləri ilə tanış olmuş, onlardan qədim duz mədənlərində istifadə olunduğunu qeyd etmişdir.

**Mənbə: "Naxçıvan tarixi" çoxcildliyinin I cildi**
**(ardı var)**

# Bir əsr sonra “Nadanlıq”la yeni görüş

***Ötən həftə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli dövlət xadimi, yazıçı və publisist Nəriman Nərimanovun “Nadanlıq” dramı əsasında rejissor Tofiq Seyidovun hazırladığı “Nadanlıq və ya üç telefon zəngi” tamaşasına ictimai baxış olub.***



Tamaşa Naxçıvan teatrının səhnəsində, təqribən, bir əsr bundan əvvəl (1914-cü ildə) səhnələşdirilib. Quruluşçu rejissor teatr tariximizdə ilk dəfə olaraq tamaşaya müəllifin həyat və fəaliyyətini əlavə edib. Qeyd edək ki, aprel ayının 14-də görkəmli dövlət xadimi və yazıçımız Nəriman Nərimanovun anadan olmasının 145 illiyi tamam oldu. Tamaşa Azərbaycan səhnəsində isə ilk dəfə 120 il bundan əvvəl səhnəyə qoyulub.

Nəriman Nərimanovun hələ Qori Müəllimlər Seminariyasında oxuduğu illərdə yazmağa başladığı bu əsər müəllifin ilk qələm təcrübəsi hesab olunur. “Nadanlıq” dramında köhnə Azərbaycan kəndinin dəhşətli mənzərələri, kənddə maarifçilik ideyaları yaymaq istəyən müəllimin sarsıntıları, zülm və zülmət içində boğulan, eyni zamanda nadanlıq fəlakətinin tüğyan etdiyi cəmiyyət təsvir olunur. Bu səhnələrə baxmaqla o dövrün dəhşətli fəlakətlərini hiss etməmək mümkün deyil. Quruluşçu rejissorun ilk dəfə olaraq Nəriman Nərimanovun obrazının, onun həyat yoldaşı Gülsümün, evində himayə edib saxladığı cavan qız uşağının tamaşaya daxil edilməsi, bu böyük şəxsiyyətin bu günümüzlə səsləşən məktublarının, çıxışlarının, fikirlərinin onun dilindən səsləndirilməsi tamaşaçını düşündürür.

Səhnənin bədii tərtibatı da tamaşaçıda böyük maraq doğurur (quruluşçu rəssam Xalq rəssamı Hüseynqulu Əliyev və rəssam Fizzə Quliyeva). Gənc rəssam Fizzə Quliyeva teatrımızda ilk dəfə qadın rəssam kimi bu tamaşanın hazırlanmasında iştirak edir. Kremlin Spassk qülləsi fonunda təsvir edilən hörümçək toru ilə əsrin əvvəllərində Azərbaycanın və Nəriman Nərimanovun taleyi arasında oxşarlıq var. Bu səhnələrdə səslənən fikirlər tarixin bir sıra mətləblərini ortaya qoyur. Həmin səhnələrdə Azərbaycan Respublikasının Əməkdar artisti Əli Əliyevin (Nəriman Nərimanov), aktrisalar Nazlı Hüseynquliyevanın (Gülsüm xanım), Fidan Qasımovanın (Xanım) ifaları təbiidir. Bu səhnələrdəki obrazlar rejissorun tamaşaya əlavə etdiyi surətlər olsa da, tarixi reallığı əks etdirdiyi üçün olduqca maraqlıdır. Nəriman Nərimanov obrazını bugünkü nəslə tanıtmaq baxımından bu səhnələrin canlandırılması təqdirəlayiqdir.

Tamaşada rejissorun adını dəyişdirib Nəriman qoyduğu Məhəmmədağa obrazı görkəmli dövlət xadiminin Borçalı qəzasının Qızılhacılı kəndində müəllim işlədiyi gənclik illərindəki prototipidir. Tamaşanın iki müsbət qəhrəmanı hesab edilən gənc Nəriman müəllim (aktyor Elnur Rzayev) və Ömər (aktyor Səyyad Məmmədov) eyni ideallarla yaşayırlar. Bu iki şəxs yeganə həmfikirlərdir. Gənc Nəriman nikbindir. O inandığı, arxalandığı Ömərin köməyi ilə düz yoldan azmış adamları maarif yoluna, tərəqqi yoluna gətirəcəyinə inanır. Lakin hadisələr inkişaf etdikcə onların çətinlikləri inandırıcı olaraq ortaya çıxır. Hər iki obraz dramaturgiyamızdakı maarifçilik ideyalarını yaşadan obrazlara bənzəsələr də, (“Bəxtsiz cavan”da Fərhad, “Müsibəti-Fəxrəddin”də Fəxrəddin) onların fərqli cəhətləri də vardır. Xüsusilə maarifpərvər ziyalı Ömər kənd həyatındakı ziddiyyətləri yalnız nadanlıqda görür, ona elə gəlir ki, bütün bəlalara səbəb nadanlıqdır.

Tamaşanın kənd mənzərələrini, feodal-patriarxal kəndi canlandıran səhnələrində Gülpəri (aktrisa Nurbəniz Niftəliyeva) və Yetər obrazları ilə Azərbaycan qadınının simasını görürük (aktrisa Zəminə Baxşəliyeva). Hər iki aktrisa dövrün cinə, fala və başqa cadugər əməllərinə inanan qadınlarını inandırıcı yaradıblar. Bu səhnəni izləyən tamaşaçı hiyləgər, pula həris Molla Qasıma nifrət edir, sadəlövh, avam qadınların halına acıyır. Xalq artisti Rövşən Hüseynovun canlı və təbii ifasında kənd mollasının obrazı sənətkarlıqla təqdim edilir.

Tamaşada teatrın aktyorlarının XIX əsr Azərbaycan kəndinin sakinləri olan xarakterik personajları da diqqətdən kənarda qalmır. Kənddə əsl nadanlığın daşıyıcıları olan bu insanların obrazları aktyorlarımızın ifasında tipik səviyyədə təqdim olunur.

Xüsusilə Hacı Abdulla (Xalq artisti Həsən Ağasoy), Qurbanəli (Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haxverdiyev), Koxa (aktyor Zakir Fətəliyev), Niyazəli (Xalq artisti Şirzad Abutalıbov), Ağakişi (Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayev), Şamil (Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov), Pirverdi (aktyor Cəbrayıl Nəbiyev) tamaşadakı xarakterik kəndli surətlərini tipikləşdirməyi bacarıblar. Bu kəndlilərin dünyagörüşləri, düşüncələri, daxili dünyaları eyni olsa da, teatrımızın aktyorları onları ayrı-ayrı fərdi tiplər səviyyəsində təqdim edirlər. Tamaşada dövrün nadanlığını, savadsızlığını, geriliyi təmsil edən, vaxtı keçmiş köhnə adət-ənənələrin fəlakətə yol açdığını dərk etməyən bu tiplərin aktyor ifasında təqdimi maraqla qarşılanır.

Tamaşanın uğurlu təqdimində gənc yaradıcı qüvvələrin də ifaları maraqla qarşılanıb. Gənc aktyorlar Bünyat Səttarlı (Vəli), Vəli Babayev (Yasaul), Hüseyn Məmmədov, Alim Alışov, Rəhman Dünyamalıyev (İsmayıl) tamaşada rol alan gənc aktyorlardır.

Tamaşadakı rəqsləri teatrda fəaliyyət göstərən “Təməl” teatr studiyasının tələbələri ifa edirlər. Tamaşanın musiqi tərtibatçısı Çingiz Babayev hadisələrin gedişi ilə səsləşən musiqiləri ustalıqla seçib.

Tamaşadan sonra teatrın direktoru, Xalq artisti Rza Xudiyev, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlı, Xalq artisti Kamran Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev, Xalq rəssamı Hüseynqulu Əliyev, rejissor Tofiq Seyidov çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildiriblər.

Məlumat üçün bildirək ki, tamaşa yaxın günlərdə teatrsevərlərə təqdim ediləcəkdir.

**Əli RZAYEV**

## Sınaq imtahanlarında yüksək bal toplayan şagirdlər mükafatlandırılıblar

Aprelin 18-də “İstedad-XXI əsr” hazırlıq kurslarında 2014-2015-ci tədris ilində muxtar respublika üzrə keçirilən sınaq imtahanlarında ən yüksək nəticə göstərən şagirdlərlə görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan “İstedad-XXI əsr” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Elbrus İsayev bildirmişdir ki, muxtar respublikamızda təhsil infrastrukturunun günün tələbləri səviyyəsində qurulması və inkişaf etdirilməsi bu sahədə olan nailiyyətlərimizi ilbəil artıraraq uğurlu nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Artıq muxtar respublika şagirdlərinin göstərdiyi nəticələr respublika üzrə göstəricilər siyahısında ön cərgələrdə yer almaqdadır. Muxtar respublikamızın bütün şəhər və kəndlərində müasir standartlara cavab verən təhsil müəssisələrinin tikilib istifadəyə verilməsinin nəticəsidir ki, bu gün burada mükafatlandırılanlar sırasında ucqar dağ kəndlərinin şagirdləri də ən yüksək nəticələr göstərən şagirdlər sırasındadırlar.



Muxtar respublikamızın ümumtəhsil məktəblərindən kursa dəvət edilmiş şagirdlər qiymətli hədiyyələr və diplomlarla mükafatlandırılmışlar.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Atıcılıq Mərkəzində “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə Naxçıvan Muxtar Respublikası çempionatına yekun vurulub.***

*İdman xəbərləri*

## Muxtar respublika çempionu məlum oldu

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkil etdiyi yarışda muxtar respublikanın şəhər və rayonlarını təmsil edən 8 komanda mübarizə aparıb.

Yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Təhsil Nazirliyinin nümayəndəsi Elxan Babayev və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşı Məftun Xəlilov çıxış edərək muxtar respublikada idmana göstərilən qayğıdan bəhs edib, yarışın qaydaları haqda məlumat veriblər.

Qeyd edək ki, çempionatda şəhər və rayonlarda keçirilən yarışların qalib komandaları mübarizə aparıblar. 8 komanda 6 növdə – 100 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbaraatma, 2 kilometr məsafəyə qaçış, idman nərdivanı və paralel



qollarda qalibi müəyyənləşdirməyə çalışıblar. Yekun nəticəyə əsasən, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini xal hesabı ilə qabaqlayaraq qalib adını qazanıb. Şahbuz rayon Ayrınc kənd tam orta məktəbinin komandası ikinci, Şərur rayon Oğlanqala kənd tam orta məktəbinin komandası isə üçüncü yerlərə layiq görülüblər.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin komandası muxtar respublikanı Azərbaycan çempionatında təmsil edəcək.

## İdmançımızın daha bir uğuru

Bakı şəhərində keçirilən Böyük İpək Yolu beynəlxalq boks turniri başa çatıb. “Bakı-2015” Avropa Oyunlarına sınaq-hazırlıq xarakteri daşıyan yarışda Naxçıvan boksçusu, Avropa Oyunlarında iştirak edəcək Tayfur Əliyev də iştirak edib.

56 kiloqram çəki dərəcəsində mübarizə aparan dəri əlcək sahibimiz ilk görüşdə gürcüstanlı Levan Kadiaşvilini yarışdan kənarlaşdırıb – 3:0. Yarımfinala vəsiqə qazanan gənc boksçumuzun budəfəki rəqibi Kənan Hüseynəliyev olub. Daha inamlı mübarizə aparan və rəqibinə aman verməyən Tayfur Əliyev bu dəfə də rinqi 3:0 hesablı qələbə ilə tərk edib. Həlledici qarşılaşmada isə o, fransalı Samuel Kristori ilə üz-üzə gəlib. Milli komandamızın üzvü final qarşılaşmasında da qalib gələrək (2:1) turnirin baş mükafatını qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

## Culfa rayonunda basketbol turniri

Culfa rayon Yaycı kənd 2 nömrəli tam orta məktəbin idman zalında rayon ümumtəhsil məktəbləri arasında “Zərərli vərdişlərə “yox” deyək, həmişə sağlam olaq” devizi altında qızlar arasında basketbol üzrə rayon birinciliyi keçirilib. Birincilikdə 5 komanda iştirak edib və oyunlar olimpiya sistemi üzrə təşkil edilib. Yekun nəticəyə əsasən, Yaycı kənd 2 nömrəli tam orta məktəbin komandası birinci yerə layiq görülüb. Onlar həlledici qarşılaşmada Yaycı kənd 1 nömrəli tam orta məktəbin komandasını məğlub ediblər.

Sonda qalib komanda və idmançılara Culfa Rayon Gənclər və İdman İdarəsinin, rayon Təhsil Şöbəsinin və Basketbol Federasiyasının Culfa rayon bölməsinin kubok və diplomları təqdim edilib.

## Basketbol çempionatı davam edir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi kişilər arasında basketbol üzrə muxtar respublika çempionatı davam edir. Artıq birincilikdə üçüncü turun oyunlarına yekun vurulub. Mövsümə iddialı başlayan “Ordubad” komandası bu turda culfalı həmkarlarını məğlub etməklə şərikli lider olublar. “Naxçıvan” Universitetinin komandası isə çempionatda ilk qələbəsini qazanıb. Tələbələr səfərdə “Sədərək” komandasından üstün olublar. Elə Naxçıvan şəhərinin “Lokomotiv” komandası da bu turda ilk qələbə sevinci yaşayıb. Onlar səfərdə “Babək” komandasını məğlubiyyətə uğradıblar.

**3-cü turun oyunları:**

*“Babək”-“Lokomotiv” – 33:48*

*“Sədərək”-“Naxçıvan” Universiteti – 35:61*

*“Ordubad”-“Culfa” – 54:35.*

| S/N | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 3 | 3 | 0 | 210-110 | 6 |
| 2. | Ordubad | 3 | 3 | 0 | 173-93 | 6 |
| 3. | Culfa | 3 | 2 | 1 | 157-121 | 5 |
| 4. | Babək | 3 | 1 | 2 | 119-139 | 4 |
| 5. | Lokomotiv | 3 | 1 | 2 | 120-150 | 4 |
| 6. | Naxçıvan U. | 3 | 1 | 2 | 136-168 | 4 |
| 7. | Şərur | 3 | 1 | 2 | 76-133 | 4 |
| 8. | Sədərək | 3 | 0 | 3 | 111-188 | 3 |

**Qeyd:** “O” – oyun, “Q” – qələbə, “M” – məğlubiyyət, “T/F” – top fərqi, “X” – xal.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, “20”-ci məhəllə 93 ünvanında yaşayan İmanova Fatimə Müslüm qızının adına olan MH-0005354 seriya nömrəli çıxarış və AA-000299 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Səyyad Əliyev küçəsi, ev 10-da yaşamış Muradov Tahir Muradəli oğlunun adına olan 3289 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Çalxanqala kənd sakini Məhərrəmova Münəvvər Abdulla qızının adına olan JN-124 A, B, C inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Nəzərabad kənd sakini Edilxanov Rövşən Vəli oğlunun adına 12 aprel 1999-cu il tarixdə Babək Rayon Aqrar İslahat Komissiyası tərəfindən verilmiş 10311068 kodlu, JN-238B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şahadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 320